SAĞLAM HƏYAT TƏRZİNƏ CİDDİ TƏHLÜKƏ - NARKOMANİYA

İnsan ölümü müxtəlif səbəblərdən gerçəkləşə bilər. Müharibələr, yoluxucu xəstəliklər, avtomobil qəzaları, qətl hadisələri, intihar halları, təbii fəlakətlər, bəzi ölkələrdə hökm sürən aclıq və.s. bu amillərin sırasındadır. Son çağlar sadalananların sırasına biri də əlavə olunub. Bu, ağ ölüm adlandırdığımız narkomaniyadır. Narkomaniya birbaşa intihar halı olmasa da onun insanları tədricən məhv etdiyi, ölümə sürüklədiyi inkaredilməzdir.

Artıq uzun müddətdir ki, narkomaniya müasir cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən biridir. Və təəssüflə qeyd etməliyik ki, ağ ölüm adlandırılan bu bəlanın qurbanları bütün dünyada durmadan artır. Bu öldürücü maddənin pəncəsindən gec də olsa yaxa qurtarmağa çalışanlar tapılsa da atılan addım hər zaman müsbət nəticə vermir. Çünki narkotik maddələrdən imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır.

Tarixə baxsaq, görərik ki, narkomaniya sadəcə müasir dövrün və ya bir neçə əsrin bəlası deyil. Təəssüf ki, narkomaniyanın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşaq insanların ağrı və əzablarını azaldan vasitə kimi qəbul olunurdu. Xaşaq qozasından alınan cirə - yani tiryək tibbi məqsədlər üçün istifadə olunub. Ümumiyyətlə, tiryəkli preparatlar orta əsrlərdə təbabətdə geniş yayılmışdı. Tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazm və sarsıntıları götürmək, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunurdu.

Şərq ölkələrinə səyahətə çıxanlar tiryək istehsalçılarının acınacaqlı vəziyyətini görən zaman bunu yanlış olaraq həmin xalqın ənənələri ilə bağlayır, hətta Hindistanı gəzən bir alim tiryəkdən asılılığı bəla şərh edir: "Kim tiryəkə vərdiş edibsə, onu hər gün qəbul etməlidir".

Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda isə narkomaniya ümumbəşəri bəlaya çevrilərək müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə çevrildi. Digər bir tərəfdən isə narkotik maddələrin qanunsuz dövriyyəsi gəlir əldə etmək üçün başlıca vasitə oldu.

Narkotik maddələrdən istifadə edən insanlarda ilk olaraq xoş hisslər yaranır və istifadəçilər bu aldadıcı təsirin, yani sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır. Narkotikin aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.

Qeyd etdiyimiz kimi, narkomaniya insanın tədricən ölümünə səbəb olur. Daha doğrusu, insan şüurlu olaraq özü-özünü ölümə məhkum edir. Belə ki, bu maddələrdən mütəmadi olaraq istifadə edənlərin orqanizmləri zəifləməyə, bədəni fiziki gücdən düşməyə, həmçinin daxili orqanlar - qaraciyər, böyrək öz funksiyasını itirməyə başlayır. Bundan başqa, narkotik maddələr şəkərli diabet, hepatit kimi xəstəliklərin ən yaranmasına səbəb olur. Və ən nəhayət, QİÇS kimi təhlükəli bir xəstəlik qaçılmaz olur. Bu xəstəliyə yoluxanların əksəriyyəti narkotik maddə istifadəçiləridir. Bütün bunlarla yanaşı, narkotikin təsirindən həmin insanların yaxınları, ətrafındakıları ilə problemlər yaranır, onlar psixoloji sarsıntılar keçirərək ətrafında olan insanlara zərər verməyə başlayırlar.

Əfsuslar olsun ki, bu gün orqanizmində narkotik daşıyıcı olanların əksəriyyəti genc nəslin nümayəndələridir. Bunun sonunda dayanan faciəni isə təsəvvür etmək belə qorxuncdur. Çünki gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən başlıca sütundur.

Narkotik istifadə edən insanlardan doğulan körpələrin fiziki qüsurlu olması qaçılmazdır.

Demək olar ki, dünyanın müxtəlif ölkələrində narkotik maddə alveri ilə məşğul olan və bu biznesdən yüksək mənfəət əldə edən insanlar var. Hətta bəzi ölkələrdə, məsələn, Hollandiyada narkotikin alışı və satışına qadağa yoxdur. Bu hal qeyri-qanuni hesab olunmur və heç kim cinayət məsuliyyətinə cəlb edilmir. Lakin digər ölkələrdə bu kimi halların qarşısını almağa göstərilən cəhdlər, narkomaniya adlı bəla insanların həyatını zəhərləməsinə əngəl ola bilmir.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyata siyasi proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir.

Narkomaniya orqanizmin zəifləməsinə bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların zəhərlənməsinə gətirib çıxarır. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Ən qorxulu xəstəliklər orqanizmə qan vasitəsilə daxil olur və vena vasitəsilə qəbul olunan narkotiklərdən istifadə edən narkomanlar qan ilə tez-tez rastlaşırlar.

Narkomanlıq cəmiyyətin özəyi olan ailəni dağıdır, qeyri-stabil şəraitin yaranmasına səbəb olur. Narkomaniya təhlükəsinə qarşı mübarizəni gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 26 avqust 1996-cı ildə "Narkomaniya və narkotika dövriyyəsinə qarşı tədbirlər haqqında" fərman verilmişdir. 1999-cu ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Narkotik vasitələr psixotron maddələrin qanunsuz dövriyyəsi haqqında" qanun qəbul etmişdir.

Tibbi praktika göstərir ki, narkomaniyadan müalicə olmaq çox çətindir.

Narkotikdən asılılıq ondan bir və ya bir neçə dəfə istifadə etməklə baş verir, lakin onun caynaqlarından qurtulmaq çox az adama nəsib olub. Hətta narkotikdən can qurtarmaq barədə güclü irəli yaransa da bunu etmək çox çətin və uzun vaxt tələb edir. Bu problemi həll etmək çox az adama nəsib olub. Buna görə də ən yaxşı həll yolu-narkotika toxunmamaqdır!

Narkotik ilk növbədə narkotik sağlamlığına ziyan vurur.

Narkotik maddə qəbul etmiş insanlar hərəkət edə bilmirlər, heç bir reaksiya göstərmir, düşünmürlər. Onların beyni ancaq fizioloji prosesləri idarə edir. Məsələn, onları yedirtdikdə yeyir, əşyalardan istifadə edə bilmir, danışa bilmirlər. Onları öldürmək heç kimin ixtiyarında deyil, özləri də bunu edə bilmirlər. Elə bəlacə də illərlə ömür sürürlər.

Narkotikin olmaması əsəbləşməyə və hirslənməyə gətirib çıxarır. Böyük narahatçılıq başlayır. İnsan artıq bir işlə məşgul ola bilmir. Sonrakı "doza" üçün hər bir əlçatmaya, iyrənc hərəkət eləməyə məcbur olur. Narkotik qəbul etdikcə ədəbsizlik və yalançılıq başlayır. Bütün maraqları, ümidləri və qarşısına qoyduğu məqsədləri getdikcə yox olur.

HƏRBİ XƏBƏRLƏR

BTR-3 zirehli transportyorlarının yenidən istehsalına başlanılıb

Kiyev Zirehli Tank Zavodu yenidən BTR-3 zirehli transportyorlarının istehsalına başlayıb. Artıq istehsalı tamamlanan 50 ədəd BTR-3 zirehli transportyoru Ukrayna Quru Qoşunlarının döyüş təchizatına daxil edilib. Kiyev Zirehli Tank Zavodu eyni zamanda Silahlı Qüvvələrin 140 ədəd fərqli zirehli transportyorunun yenilənməsini də həyata keçirib.

MiQ-35-in 2020-ci ilə kimi silahlanmaya daxil edilməsi planlaşdırılır

Rusiyanın MiQ-35 döyüş təyyarələrinin sınaq uçuşları 2017-ci ilin yanvar ayının sonlarında başlayacaq. 2007-ci ildə ilk uçuşları keçirilən MiQ-35-lərin 2017-ci ilin sonunda testlərinin tamamlanması, 2018-2020-ci illərdə isə Rusiya Hərbi Kosmik Qüvvələrinin istifadəsinə verilməsi planlaşdırılır.

Təyyarənin uçuş tavanı 17 km, maksimum sürəti isə 2,6 min km/saat təşkil edir. MiQ-35 təyyarələri düşmənin hava məkanına girmədən hədəfi müxtəlif tip silahlarla vurmaq üçün hazırlanıb. Son nəsil rabitə və hədəfləmənzili 3 min kilometdir.

Təyyarəyə qurulan "Juk-A" tipli antenli perspektiv radiolokasiya stansiyası da (AFAR) 200 kilometrə qədər hava və yerüstü hədəfləri aşkar etməyə imkan verəcək.

İkipilotlu təyyarə "Klimov" təcrübi-konstruktor bürosunun (TKB) hazırladığı RD-33MK mühərriki ilə təchiz olunub.

Qeyd edək ki, MiQ-35 təyyarələrinin Rusiya Hərbi Kosmik Qüvvələrinə 2014-cü ildə təhvil verilməsi planlaşdırılsa da, iqtisadi çətinlik səbəbilə çatdırılmanın vaxtı uzadılıb.

Rusiya yeni uzaqmənzilli taktiki raketin sınaqlarını keçirib

Rusiya yeni uzaqmənzilli operativ-taktiki raketinin sınaqlarını həyata keçirib. "Obyekt-4204" şərti adlı raket Kamçatkada yerləşən "Yasnıy" poliqonundan atılıb.

Raket bir neçə min kilometr məsafəni qısa müddətdə qət edərək hədəfə zərbə endirib.

Bildirilir ki, qeyd olunan ərazidən Böyük Britaniyaya raketin uçuş vaxtı 13 dəqiqə civarındadır.

Mütəxəssislərin sözlərinə görə, rəqib ölkələrin, xüsusilə də ABŞ-ın RLS-ləri tərəfindən aşkar olunmasına manə yaradılması üçün raket müasir sistemə təchiz edilib.

Raketin texniki xarakteristikası haqda isə ətraflı məlumat verilməyib.

ST2-nin təqdimatı keçirilib

Çinin NORİNCO şirkəti ixrac üçün hazırladığı ST2 versiyalı tırtıllı zirehli maşının təqdimatını keçirib.

Tank Əleyhinə Maşın (Tank Destroying Vehicle/TDV) polad materialdan düzəldilib və üzərində 105 mm-lik topla təchiz olunub.

ST2 yüksək partlayış gücünə malik, tandem başlıqlı tank əleyhinə mərmilərlə atəş açır. Bu mərmilərin atış menzili 5 km-dir.

Pakistan "Babur-3" raketinin dənizaltı atış testini keçirdi

Pakistan 450 km menzilə sahib "Babur-3" qanadlı raketin Hind okeanında dəniz altından ilk buraxılışını həyata keçirib.

Atışın uğurlu keçdiyi bildirilsə də, İSPR raketin testlərinin keçirildiyi bölgəni gizli saxlayıb.

Test atışı zamanı raket sualtı platformadan azad olduqdan sonra hədəfi yüksək dəqiqliklə vurub.

"Babur-3" raketi nüvə başlığı da daxil olmaqla, müxtəlif növ döyüş yükü daşımağa qadirdir.

ABŞ hərbi məqsədlər üçün 3D texnologiyasında PUA yaradılmasına milyardlarla dollar ayırıb

ABŞ hərbi təyinatlı 3D texnologiyası əsasında hazırlanan yeni dördpərli pilotsuz uçuş aparatının (PUA) testlərini keçirib.

"AzeriDefence"nin məlumatına görə, bu barədə ABŞ Müdafiə Nazirliyinin paydı hesabatda bildirilib. 3D texnologiyası əsasında istehsal olunan PUA əməliyyatlarda istifadə olunacaq.

Hazırda PUA üzərində hərbçilərin tələblərinə uyğun yenilənmə işləri həyata keçirilir. Proqram yüklənməsindən sonra 24 saat ərzində xidmət göstərə biləcək mini dron ABŞ ordusuna təhvil veriləcək.

Bundan başqa, ABŞ-da 3D texnologiyası əsasında "Perdix" versiyalı daha bir mikro dronun testlərinə də başlanılıb.

300 qram çəkisi olan "Perdix"in Kaliforniya ştatında "Çayna-Leyk" poliqonunda keçirilən testləri uğurla nəticələnib.

"Perdix" mikrodrone proqramının yaradılması, sınaqdan keçirilməsi və istehsalı ən azı 3,8 milyard dollar dəyərində qiymətləndirilir.

Rusiyalı mütəxəssislər isə amerikalıların bu sepkili işlərini boş yerə vəsait sərf etmək kimi dəyərləndiriblər. Onların fikrincə, 3,8 milyard dolların belə layihələrə xərclənməsi rentabelli deyil.

"Azeridefence"

Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Cavad Rzayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

№ 01 (492)
16 yanvar 2017-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

ƏSGƏR

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

2017-ci İL AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLDİ

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqindən:

Bu gün biz 2016-cı ilin yekunlarını müzakirə edəcəyik və bu il görüləcək işlər haqqında danışacağıq.

Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmişdir, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir. Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müsbətdir, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklardan qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.

2016-cı ildə ölkə qarşısında duran demək olar ki, bütün əsas vəzifələr təmin edildi. Bildiyiniz kimi, Azərbaycan neftlə zəngin olan digər ölkələr kimi, neft qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, Azərbaycan o ölkələrdəndir ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişdir. Neftlə zəngin olan bir neçə başqa ölkə var ki, bizim kimi bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşmüşdür, Bu, o deməkdir ki, əsas gəlir mənbəyimiz olan neft bizə 3-4 dəfə az gəlir gətirmişdir. Biz əlbəttə ki, bu böhranlı vəziyyətdən çıxış yolunu tapmalı idik və hesab edirəm ki, tapmışıq. Bütün tərəfdaşlarımızla, itkilərə baxmayaraq, biz iqtisadi sabitli-yimizi qoruya bildik, bu ağır vəziyyətdən şərəflə çıxa bildik. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılmışdır. Bir daha qeyd etmək istəyirəm, hər bir ölkənin inkişafı üçün əsas şərt təhlükəsizlikdir, sabitlikdir, vətəndaş həmrəyliyidir. Bu da bizdə var. Təhlükəsizlik qorunur, bir daha demək istəyirəm ki, xalqın iradəsinə əsaslanan sabitlik, vətəndaş birliyi və həmrəyliyi 2016-cı ildə daha da artmışdır. Bütün Azərbaycan xalqı vahid amal uğrunda birləşib ki, ölkəmizi daha da inkişaf etdirək və müstəqilliyimizi daha da möhkəmləndirək.

2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarımızı, xüsusilə neft vəsaitini qorumaq idi. Biz buna nail ola bilmişik. Məni indi dünyada gedən proseslərə xalqımızın diqqətini bir daha yönəltmək istəyirəm. Demək olar ki, neftlə zəngin olan bütün ölkələrin valyuta gəlirləri böyük dərəcədə aşağı düşüb. Neft fondları, suveren fondlar, digər fondlar, pensiya fondları, bunların müxtəlif adları var. Bu fondlarda yığılan vəsait kəskin şəkildə aşağı düşmüşdür. Azərbaycanda isə biz demək olar ki, Neft Fondunun gəlirlərini qoruya bildik. Neft Fondunun gəlirləri cəmi 4 faiz aşağı düşmüşdür. Çünki biz valyuta ehtiyatlarımızın şaxələndirilməsi istiqamətində vaxtilə addımlar atmışıq. Bizim valyutamız həm dollarda, həm avroda, həm Britaniya funtunda saxlanılır. Dolların möhkəmlənməsi, avronun, funtun aşağı düşməsi nəticəsində bax, dollar ekvivalentində bizim Neft Fondumuzun valyuta ehtiyatları 4 faiz aşağı düşmüşdür. Əgər bu məzənnə fərqi olmasaydı, biz o aşağı səviyyəyə tənəzzülə də uğramazdıq. Yəni bu gün Azərbaycan Dövlət Neft Fondunda 33 milyard dollar vəsait var. Biz bunu qorumuşuq, qoruyacağıq və eminəm ki, bu il bunu daha da artıracağıq.

2016-cı ildə sosial məsələlər də öz həllini tapıb. Sosial siyasət daim bizim əsas prioritetlərimizdən biri olmuşdur. 2016-cı ildə maaşlar 7 faiz, pensiyalar 8 faiz artmışdır. Yenə də artmalıdır. Hesab edirəm ki, 2017-ci ildə də bu istiqamətdə müsbət dinamika olacaqdır. Biz ünvanlı sosial yardım ilə bağlı çox önəmli addımlar atmışıq. Yeni ehtiyac içində yaşayan vətəndaşlara dövlət həmişə öz yardımını göstərir və göstərəcək.

Azərbaycan çox böyük müsbət beynəlxalq imicə malikdir. Beynəlxalq təşkilatlarda bizim sözümüz keçir və təsirimiz artır. Biz beynəlxalq əlaqələrimizi bu il də genişləndirəcəyik. Keçən il ölkəmizə 20-yə yaxın dövlət və hökumət başçısı rəsmi və işgüzar səfərlər etmişdir. Bu da bir göstəricidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işləmişik. İslam Əməkdaşlıq Təşkilatı Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel ayında Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzlə bağlı kontakt qrupu yaratdı. Bu qrup artıq fəaliyyətə başlayır. Bu, bizim böyük uğurumuzdur. Son illər ərzində bizim fəaliyyətimiz nəticəsində Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qət-namələr qəbul etmişdir.

2016-cı ilin aprel ayında Azərbaycan dövləti və Azərbaycan Ordusu işğalçılara çox ciddi zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bizim şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik. Minlərlə hektar torpaq işğalçılardan boşaldıldı. İndi orada təmizlik işləri, bütün mənalarda təmizlik işləri aparılır. Azərbaycan Ordusu indi on minlərlə hektar torpağa nəzarət edir. İndi o ərazilərdə işğalçıların izi-tozu qalmayıb. Biz o bölgələrdə lazımi tədbirləri görəcəyik ki, vətəndaşlarımız oraya qayıtsınlar və artıq bu proses başlayır.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Biz hərbçilərimizlə fəxr edirik. Bu döyüşlər zamanı Azərbaycan xalqı bir daha öz birliyini nümayiş etdirmişdir. Beləliklə, hesab edirəm ki, 2016-cı il münaqişənin həlli ilə bağlı çox önəmli il olmuşdur. Çünki qarşı tərəf – Ermənistan təşviş içində idi, vasitəçilərdən xahiş edirdi ki, tezliklə bu döyüşlər başa çatsın və onlar danışıqlar prosesinə qayıtmağa hazır olduqlarını bildirmişlər. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, onlar müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmişlər. Baxmayaraq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu məsələ ilə heç bir əlaqəsi yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bu vaxta qədər rəhbərlik etmiş şəxslər sadəcə olaraq, böyük siyasi səhv buraxaraq ermənipərəst mövqe və qəbuledilməz fikirlər ifadə etmişlər. İndi biz hamımız onların əqidətinin necə olduğunu yaxşı bilirik. Yeni aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bizə bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik.

2016-cı ildə idmançılarımız da bizi böyük qələbə ilə sevindirdilər. Rio Olimpiya Oyunlarında biz tarixi qələbə qazanmışıq, On səkkiz medal qazanmışıq və medalların sayına görə biz dünya miqyasında 14-cüyük, Avropada 7-ci, keçmiş sovet respublikaları arasında Rusiyadan sonra 2-ci və müsəlman aləmində birinciyik. Bax, bu göstəricilər hesab edirəm ki, hər şeyi göstərir. Bu, bizim növbəti böyük qələbəmizdir.

2016-cı ildə Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu, hesab edirəm ki, dünya miqyasında nadir bir hadisə idi. Bilmirəm, bu vaxta qədər hansısa bir ölkədə "Multikulturalizm ili" elan edilmişdir, yoxsa yox. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, 2016-cı ili "Multikulturalizm ili" elan etməyimiz çox böyük məna daşıyırdı. Bu, həm bizim siyasətimizi, cəmiyyətimizin əhvali-ruhiyyəsini göstərir, gördüyümüz işləri, görülcək işlərimizi əks etdirir. Azərbaycan doğrudan da dünya miqyasında multikulturalizmin mərkəzidir.

2016-cı ildə, əlbəttə, çox hadisələr baş vermişdir. Bütün bu hadisələr, hətta önəmli hadisələr haqqında danışmaq üçün saatlarla vaxt lazımdır. Sadəcə mən vacib hesab etdiyim məqamları ifadə etdim, həm təhlil olaraq, həm də gələcək platforma kimi. Biz bundan sonra da bu yolla gedəcəyik.

Prezident İlham Əliyevin yekun nitqindən:

Əminəm ki, ölkəmiz 2017-ci ildə uğurla inkişaf edəcək. Bütün sosial proqramlar icra ediləcək və iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılacaq.

2016-cı ilin iqtisadi göstəricilərinə təhlil edərkən biz görürük ki, ümumidaxili məhsulun azalmasının əsas səbəbi dünya bazarlarında neftin qiymətinin aşağı düşməsidir və bundan irəli gələn dövlət investisiyalarının azalmasıdır. Ən çox tənəzzül inşaat sektorunda müşahidə olunurdu. İl ərzində görülmüş tədbirlər nəticəsində inşaat sektorunun canlandırılması istiqamətində önəmli addımlar atılmışdır. 2017-ci ildə də inşaat sektorunun inkişafı ilə bağlı lazımi tədbirlər görüləcək. Beləliklə, əminəm ki, Azərbaycanda bu il inşaat sektoru inkişaf edəcək.

Bir çox layihələrin icrası nəzərdə tutulur. Onların arasında xüsusilə Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətini qeyd etmək istərdim. Keçən ay Yasamal rayonunda Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsinə start verildi. Əminəm ki, bu layihə uğurla icra ediləcək. Layihə çərçivəsində yeni bir şəhərcik yaradılacaq, Nəndürmərtəbəli 29 yaşayış binasının tikintisi nəzərdə tutulur. Məktəb, uşaq bağçası tikiləcək, infrastruktur yaradılacaq, yollar çəkiləcək. İki minə yaxın mənzil tikiləcək və güzəştli şərtlərlə vətəndaşlara, xüsusilə maddi imkanları məhdud olan ailələrə uzunmüddətli kreditlə veriləcək.

Bu il Azərbaycanda makroiqtisadi sabitlik təmin edilməlidir, inflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz buna nail olacağıq. Makroiqtisadi sabitlik hər bir ölkənin iqtisadi dayanıqlığı üçün əsas şərtlərdən biridir.

Hərbi potensialımızın gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək. Büdcədə kifayət qədər vəsait ayrılıb. Hərbi xərclər bizim büdcə xərcləri arasında birinci yerdədir. Bu, belə də olmalıdır. Biz müharibə şəraitində yaşayırıq. Bütün böhranlara, müharibə şəraitində yaşayan, müasir ölkə kimi göstərir və bu gün İslama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar İslam haqqında rəy formalaşdırırlar ki, İslam geridə qalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına hem mediada, hem ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir, İslamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri "Stop İslam" deyirlər. Bəziləri deyirlər ki, bu miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu, faşizmdir və faşizm harada yaranıb, biz yaxşı bilirik və unutmamışıq. Faşizm İslam aləmində yaranmayıb. Ona görə, İslam Həmrəyliyi Oyunlarının çox böyük mənası var. Biz bu Oyunları keçirməklə bir daha gücümüzü, imkanlarımızı göstərəcəyik, dini dəyərlərimizə sadiqliyimizi nümayiş etdirəcəyik, çalışacağıq ki, İslam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar.

Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Bakın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz.

Bütün bunları nəzərə alaraq, mən 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edirəm.

Bizim keçirdiyimiz beynəlxalq tədbirlərin məqsədi budur. Biz ildə bir neçə mötəbər beynəlxalq tədbir keçiririk. Qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışlarını keçiririk, Avropa Oyunları, "Eurovision", Formula-1 ki, 500 milyon auditoriyası var. İndi Formula-1 kimi bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz. Çünki ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya Oyunları ola bilər. Amma Yay Olimpiya Oyunları bir dəfə keçirilir. Özü də milyardlarla vəsait tələb edir. Ancaq Formula-1 hər il keçirilir. Artıq bütün infrastruktur var. Əlbəttə ki, turizmin inkişafı bundan sonra da sürətlə getməlidir.

Biz "Multikulturalizm ili"ni uğurla keçirdik. Azərbaycan bir daha dünyaya göstərdi ki, multikulturalizm, onun ideyaları yaşayır və yaşamalıdır. Azərbaycan kimi ölkələrin müqayisəsi yaxşı getdikcə artmalıdır. Keçən il və ondan əvvəlki illərdə multikulturalizmlə bağlı bədbin fikirlər səslənib. Əfsuslar olsun ki, bəzi dünya səviyyəli siyasətçilər də özlərinə rəva bilib multikulturalizmlə bağlı çox təhlükəli ifadələr işlətmişlər.Ümid edirəm ki, bu sahədə də müsbətə doğru dönüş yaranacaq və beynəlxalq ictimaiyyət daha dərindən dərk edəcək ki, dünyanın multikulturalizmdən başqa yolu yoxdur. Azərbaycan öz tərəfindən bu istiqamətdə əlbəttə ki, saylarini davam etdirəcək.

Bu il Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu da çox önəmli beynəlxalq tədbirdir, bütün müsəlman aləminin həmrəylik oyunlarına biz ev sahibliyi edəcəyik. Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarını keçirmişdir. Yəni bir ölkədə, bir şəhərdə iki il ərzində həm Avropa Oyunları keçirilib, həm də İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu, təkcə idman tədbiri deyil. Əgər kimsə hesab edir ki, İslam Həmrəyliyi Oyunları idman tədbiridir, səhv edir. Bu, böyük siyasi tədbirdir, bu, böyük mədəni tədbirdir, bu, böyük ictimai hadisədir. Bu, belə da Azərbaycanı müstəqil, öz dəyərlərinə, İslam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərir və bu gün İslama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar İslam haqqında rəy formalaşdırırlar ki, İslam geridə qalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına hem mediada, hem ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir, İslamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri "Stop İslam" deyirlər. Bəziləri deyirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox.

DÖYÜŞ YOLUMUZUN ŞƏRƏFLİ SƏHİFƏSİ - HORADİZ ƏMƏLİYYATI

23 il bundan əvvəl-1994-cü ilin yanvar ayının əvvəllərində keçirilmiş uğurlu Horadiz əməliyyatı Daxili Qoşunların döyüş yolunun şərəfli səhifələrindən biridir. O döyüşlər zamanı Füzuli rayonunun iri yaşayış məntəqələrindən olan Horadiz qəsəbəsi (hazırda şəhər-Y.A.) və onun ətrafındakı 20-dən çox kənd: Böyük Bəhmənli, Aşağı Yağlıvənd, Kərimbəyli, Şükürbəyli, Babı, Arayatlı, Molla Məhərrəmli, Əhmədalılar, Qazaxlar və s. işğaldan azad olundu. Daxili Qoşunların döyüşən qüvvələri həmin vaxt Horadiz yaxınlığında düşmənin şiddətli əks hücumunun da qarşısını aldılar. Sonra irəliləyən qüvvələrimiz Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin də işğalına son qoydular. Həmin döyüşlər zamanı "Lələtəpə" yüksəkliyindəki düşmən mövqelərini ələ keçirmək mümkün olmadı.

Mühüm hərbi-taktiki əhəmiyyət daşıyan Horadiz əməliyyatında Daxili Qoşunların şəxsi heyəti ilə yanaşı, ordu hissələri, həmin bölgənin işğal olunmuş rayonlarının polis bölmələri də iştirak etmişlər. Hücum əməliyyatının yüksək hərbi peşəkarlıqla planlaşdırılması (Daxili Qoşunların ön cəbhə qərargahının yüksək hərbi rütbəli zabitlərinin iştirakı ilə), qeyri-standart döyüş taktikasının seçilməsi (ön mövqelərdən hücumla yanaşı, gizli şəkildə düşmən postlarının arxasına keçərək, qəfil həmlə etməklə), döyüşən qüvvələr arasında nizamlanmış koordinasiyanın təmin olunması, ən əsası, döyüşçülərin mətinliyi və ruh yüksəkliyi qarşıya qoyulmuş məqsədə çatmağa imkan yaratdı. Nəticədə ermənilər xeyli canlı və maddi itki verdilər. Onların Füzuli rayonunun işğalını tam bitirib Beyləqan ərazisinə soxulmaq planı alt-üst oldu. Füzuli rayonunun cənub hissəsinin tamamilə bizim nəzarətimizə qaytarılması həmin sahədə ölkəmizin İranla dövlət sərhəddi boyu öz suverenliyini bərqərar etməsini reallaşdırdı. Horadizdə strateji əhəmiyyət daşıyan dövlət sərhəd-keçid məntəqəsində yenidən Azərbaycanın üçrəngli bayrağı qaldırıldı. Bütün bunlar o dövrdə ön cəbhədə bizə mənəvi-psixoloji-taktiki üstünlük qazandırdı.

Horadiz əməliyyatının uğurla başa çatdırılması bundan qısa müddət əvvəl-1993-cü il dekabrın 22-də Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı yüksəklik uğrunda döyüş zamanı Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin şəhid olmuş hərbi qulluqçularının ərazidə qalmış meyitlərini tapmağa və götürməyə imkan verdi. Belə ki, döyüşçülərdən Şirin Hüseynov, Abdulla Mirzəyev, Ərəstun Şahbazov, Teymur Abdulxalıqov, Nazim Qadirov və Nazim Səədovun meyitləri həmin ərazidə aşkarlanaraq oradan çıxarıldı və hərbi ehtiramla ailələrinə göndərildi.

Mən 23 il əvvəl baş vermiş həmin döyüşlərin şahidiyəm. Fəxrlə xatırlayıram ki, xidmət etdiyim Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin və digər hərbi hissələrimizin (25032 (hazırda 12318 saylı hərbi hissə), 99713) döyüşçüləri o ölümlü-itimli günlərdə qeyrət nümunəsi göstərdilər. Hamı anlayırdı ki, geriyə yol yoxdur, düşmən nəyin bahasına olursa-olsun, məhv edilməli idi. Yadımdadır ki, erməni hərbçiləri bəzi ərazilərdə hər şeylərini ataraq canlarını götürüb qaçırdılar. İşğaldan azad etdiyimiz kəndlərin vəziyyəti acınacaqlı idi. Vaxtilə abad olmuş kəndlər talanmış, yandırılmış və viran qoyulmuşdu. Belə mənzərəni görmək sarsıdıcı təsir bağışlayırdı. Horadiz də əsl xarabalığa çevrilmişdi. Hər addımda erməni vəhşiliyinin izləri vardı.

Düşməndən geri aldığımız kəndlərdə yol qıraqlarında işğal zamanı öldürülmüş mülki şəxslərin meyitlərinə rast gəlirdik. Ermənilər müharibə zamanı beynəlxalq humanitar normalara heç bir mahəl qoymaydı. Onların müharibədə tətbiq etdiyi "yandırılmış torpaq" taktikası yırtıcı xislətlərinin bariz nümunəsidir.

Qeyd olunan döyüşlərdə Daxili Qoşunlar ürəyi vətən eşqilə döyünən cəsur, layaqətli zabit və əsgərlərini itirdi. Yaralılarımız da az deyildi.

Yaxından tanıdığım zabitlərdən Oqtay Eynullayev və Ramiz Macidov uzun bir döyüş yolu keçmişdilər. Vətənpərvər zabitlər idi. Onlar Horadiz yaxınlığında qızğın döyüş zamanı ağır yaralanaraq şəhid oldular. Vətən torpağı uğrunda canını qurban vermiş neçə - neçə əsgərimizi də kədərlə xatırlayıram.

Horadiz əməliyyatı günlərində və sonrası aylarda Daxili Qoşunların hərbi hospitalının ərazidə yerləşdirilən səhra lazareti gərgin rejimdə fəaliyyət göstərib. Hərbi həkimlərimiz və orta tibb heyəti o vaxt neçə-neçə yaralının həyatını xilas etmişlər.

1994-cü ilin aprel ayında keçirilmiş xüsusi müşavirədə Ümummilli Lider Heydər Əliyev Daxili Qoşunların Füzuli cəbhəsində döyüşən şəxsi heyətinin fədakarlığını yüksək qiymətləndirib.

Füzuli rayonunun işğalından azad olunmuş ərazilləri bu gün abad və çiçəklənən məkana çevrilib. Respublika Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illər Füzuli rayonunda müasir infrastruktur yaradılıb, dəmir və avtomobil yolları bərpa edilib. Ərazi müharibədən qalmış minalardan təmizlənib. Buraya qayıtmış və ötən illər ərzində tam məskunlaşmış əhali dinc quruculuqla məşğuldur. Onlar bu qayıdışın kimin sayəsində mümkün olduğunu heç zaman unutmayacaqlar.

Ötən ilin aprel ayında ordumuzun Horadiz yaxınlığındakı "Lələtəpə" yüksəkliyini ələ keçirməsi 1994-cü ilin yanvarında ərazidəki uğurlu döyüşlərin məntiqi

1993-cü il. Füzuli rayonu, döyüş mövqeyi.

davamı oldu. Beləliklə, ermənilərin "keçilməz mövqelərə sahibik" kimi illərlə təbliğ etdikləri uydurmaları fiaskoya uğradı. Həm 1994-cü ildəki Horadiz əməliyyatı, həm də 2016-cı ilin aprelinin "Lələtəpə" uğuru müharibə salnaməmizə əsaslı dönüş mərhələləri kimi yazılıb.

Biz müharibə veteranları da bu zəfəri təmin etmiş hərbçilərimizlə qürur duyuruq.

Horadiz əməliyyatında Daxili Qoşunların qazandığı döyüş təcrübəsi çox qiymətlidir. Daha bir mühüm amil isə hərbi qulluqçularımızın o dövrdə nümayiş etdirdiyi döyüş əzmi və döyüşçü qardaşlığının bugünki şəxsi heyətə aşılanmasıdır.

Yalçın Abbasov

HƏRBİ QOSPİTALIN YARADILMASININ NÖVBƏTİ İLDÖNÜMÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNUB

Mərasimdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının şəxsi heyətə təbrik məktubu çatdırılıb

Yanvar ayının 11-də Daxili Qoşunların Hərbi Qospitalının yaradılmasının 24-cü ildönümü tamam olub. Bu münasibətlə keçirilən mərasimdə Hərbi Qospitalın şəxsi heyəti, DQBİ-də Tibb xidmətinin rəisi tibb xidməti polkovniki Rasim Qüdrətov, Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini Telman Aslanov, qospitalın veteran həkimləri və digər qonaqlar iştirak ediblər.

Tədbirin rəsmi hissəsi Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Dövlət Himni ifa olunub.

Hərbi hissənin komandiri tibb xidməti polkovnik-leytenantı Şəmsəddin Heydərov qospitalın keçdiyi şərəfli yol və bugünki həyatı haqqında nitqlə çıxış edib.

Sonra Hərbi Qospitalın yaradılmasının 24-cü ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunub.

Təbrikdə yarandığı ilk günlərdən etibarən qospitalın tibb işçilərinin ön cəbhədə fəaliyyət göstərərək yüzlərlə yaralı döyüşçünü ölümün pəncəsindən xilas etdiyi, tez bir zamanda sağalaraq siraya qayıtmaları üçün əllərindən gələni əsirgəmədikləri qeyd olunub. O da vurğulanıb ki, bu gün də əsgər və zabitlərimizin sağlamlıqlarının etibarlı təminatçısı olan qospital respublikada müasir avadanlıq və zəngin təcrübəyə malik sağlamlıq mərkəzlərindən biridir.

Burada çalışan hər bir tibb işçisinin vəzifəsi yaralı, xəstə hərbçilərə tələb olunan səviyyədə tibbi yardım göstərməkdir. Bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində müsəlləh əsgər kimi durmuş Hərbi Qospitalın tibb işçiləri vəzifələrinin öhdəsindən məharətlə gələrək, hərbi qulluqçularımızın qısa bir müddətdə və keyfiyyətlə müalicə olunmasını təmin edirlər.

Təbrik məktubunda həmçinin hərbi hissənin şəxsi heyətinin bundan sonra da qarşıya qoyulan vəzifələri daim uğurla yerinə yetirməyə hazır olacağına, hərbi bilik və bacarıqlarını, peşəkarlıq səviyyəsini artıracağına, müaliceyə ehtiyacı olan hərbi qulluqçulara daha yüksək dərəcədə tibbi xidmət göstərəcəyinə əminlik ifadə olunub.

Mərasimdə iştirak edən qonaqlar da əlamətdar gün münasibətilə qospitalın şəxsi heyətini təbrik edərək, əsr, istək və tövsiyələrini çatdırıb, öz xidməti vəzifələrinin icrasına məsuliyyətlə yanaşan tibb işçilərinin bundan sonra da ənənələrini davam etdirəcəklərinə ümidvar olduqlarını

bildiriblər.

Sonra hərbi hissə komandirinin şəxsi heyətin mükafatlandırılması haqqında əmri elan olunub. Bu əmrə əsasən, xidməti-vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə hərbi qulluqçulardan **6 nəfərə "Təşəkkür" elan edilib, 4 nəfər "Ferman", 2 nəfər "Qiymətli hədiyyə" və 3 nəfər "Vəzifə maaşı məbləğində pul" ilə mükafatlandırılıblar.**

Rəsmi hissə başa çatdıqdan sonra tədbir Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin solistlərinin iştirak etdiyi konsert proqramı ilə davam etdirildi.

leytenant X.Tağıyeva

20 YANVAR - TARİXİMİZİN QƏHRƏMANLIQ SƏHİFƏSİ

Qatil güllələrə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər,
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Bəxtiyar Vahabzadə

20 Yanvar Azərbaycan tarixində təkca facia deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna Sovet İttifaqının qoşun hissələri fövqələdə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qədəridir və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Fövqələdə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqələdə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür.

Fövqələdə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri də olmuşdur.

Yanvarın 22-də Bakıda şəhidlərin izdihamlı dəfn mərasimi keçirildi.

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını bütün mahiyyəti ilə dərk etdi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Bakıda olmamasına baxmayaraq, yanvarın 22-də Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına facia ilə əlaqədar başsağlığı teleqramı göndərdi. Teleqramın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mərasimində oxunmasını xahiş etsə də buna əməl edilmədi.

Əslində, "Bakı şəhərində fövqələdə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinin və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddəsinin tələblərinin pozulması ilə qəbul edilmişdi və bu fərmanın artıq fövqələdə vəziyyət tətbiq ediləndən və yüzlərlə insanın qanı axıdılandan sonra elan edilməsi həmin hərbi-siyasi aksiyanın Sovet İttifaqı Kommunist Partiyasının və Sovet dövlətinin rəhbərliyi, şəxsən Mixail Qorbaçov tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayət və açıq təcavüz olduğunu təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 3 yanvar 2005-ci il tarixli sərəncamda göstərilir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından qaçmayan Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Bəli, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş bu tarixdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Allah şəhidlərimiz rahmət eləsin!

"Əsgər"

HƏRBİ QULLUQÇUMUZ "İLİN ƏSGƏRİ" MÜKAFATINA LAYİQ GÖRÜLÜB

Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Hüseyn Allahverdiyev 1997-ci il sentyabrın 9-da Bakı şəhərində dünyaya gəlib. 2014-cü ildə Mingəçevir Turizm Kollecinə daxil olub.

2015-ci ilin oktyabr ayından Daxili Qoşunların sıralarındadır. Vətəninə, dövlətinə sədaqətlə bağlı olan baş əsgər H.Abdullayev işinə çox ciddi yanaşır, hərbi hissənin ictimai həyatında yaxından iştirak etməklə bərabər, həm də şəxsi heyət arasında hərbi intizamın gücləndirilməsi üçün əlindən gələni əsirgəmir. Hərbi hissənin nümunəvi bölüklərindən olan komendant tamımında manqa komandirinin müavini vəzifəsində xidmət edir.

Komendant taqımının xidməti fəaliyyəti müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb olunmamışdan öncə hərbi qulluqçular təlimatlandırılır. Şəxsi heyətə yerinə yetirdikləri döyüş tapşırığının əhəmiyyəti izah edilir.

Baş əsgər H.Allahverdiyev komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu, hərbi qulluqçulardan yüksək intizam tələb etdiyini nəzərə çatdırdı. O, xidmət etdiyi müddət ərzində dəfələrlə istər bölük komandiri, istərsə də hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlar alıb.

Növbəti dəfə dekabrın 27-də "Duzdağ" otelində Dünya azərbaycanlılarının həmrəyliyi günü və yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi yanında Gəncər Fondu və Gəncər və idman Nazirliyinin təşəbbüsü ilə keçirilən tantənəli tədbirdə "İlin əsgəri" adına layiq görülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirildiyi vurğulanıb. Qeyd olunub ki, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı onların siyasi mövqelərinin düzgün formalaşmasında mühüm rol oynayır.

Bu gün muxtar respublikada da dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, hüquqlarının qorunması, sosial problemlərinin həlli istiqamətində vacib addımlar atılır.

Nümunəvi hərbi qulluqçumuzu mükafat alması münasibətilə bir də Daxili Qoşunların Ali Hərbi Məktəbidir. Peşəkar zabit kadrlarının hazırlanmasında digər təhsil müəssisələri kimi AHM də müəssisə əhəmiyyət kəsb edir. AHM-in fəaliyyətə başlaması Daxili Qoşunların inkişafına təkan verən amildir. Peşəkarlıq, təkmilləşmə, təcrübədən bəhrələnmə, müasir dünyagörüşü, səriştə mükəmməl tədrisə bağlı olan məqamlardır. Əsas vəzifəsi savadlı və vətənpərvər əqidəyə malik zabit kadrları yetişdirməkdən ibarət olan AHM-də zabit və gizirlərin xüsusilərinin artırılması, elmi-tahqiqat işlərinin aparılması da nəzərdə tutulmuşdur.

Müasir hərb elminə və müvafiq hərbi təcrübəli mütəxəssislərə tələblərinə əsasən həyata keçirilən tədris fəaliyyəti yüksək səviyyəli biliyə, dünyagörüşünə malik zabitlərin formalaşmasına zəmin yaradır. Bunun üçün Ali Hərbi Məktəbdə hər cür şərait yaradılıb. Təlim-tədrisin keyfiyyətli şəkildə təşkili, kursantların bilik səviyyəsinin artırılması həm Daxili Qoşunlar Komandanlığı, həm də məktəb rəisi tərəfindən daima diqqət-də saxlanılır. Göstərilən qayğının nəticəsidir ki, 2016-cı tədris ili ərzində kursantlarımızın imtahan nəticələri yüksək olub. Belə ki, hazırlığına və təlim-tərbiyəsinə görə fərqlənən kursantlarımız haqqında müvafiq olaraq qəzetimizin ötən saylarında məlumat vermişdik.

Kursant **Emil Abdullayev** bu dəfə də verdiyi sözə əməl edərək, ötən tədris ilində birinciliyi qoruyub saxlamağı bacarıb. Qeyd edək ki, Emil tədris ili ərzində vəzifə borclarının icrasına layiqincə münasibət bəslədiyinə, tədrisdə və hərbi intizamın möhkəmləndirilməsində fərqləndiyinə və nailiyyətlər əldə etdiyinə görə birinci yerə layiq görülüb. Zabit Hazırlayan Tədris Bölüyünün nizam-intizamlı, məsuliyyətli kursantı qarşısına peşəkar kadr kimi yetişmək məqsədini qoyub və bu istiqamətdə daim öz üzərində çalışır.

2016-cı tədris ilinin yekunlarına görə ikinci yerə çıxan kursantımız isə ələ gəlmiş bölükdə təhsil alan **İlkin Allahverdiyevdir.** Tədris dövrü ərzində savadı, bacarığı ilə seçilən kursantımız badii qiraəti də çox sevir. Zabit adını, şərəfini hər şeydən üstün tutan İlkin zabit olacağı günü səbirsizliklə gözləyir.

Nizam-intizamına, biliyinə görə heç də öz kursant yoldaşlarından geri qalmayan **Qoşqar Əsgərov** ilin yekunlarına görə 3-cü yerə layiq görülüb. Bir kursant kimi üzərinə düşən vəzifələri çox gözəl bilən Qoşqar təlimdə geri qalan yoldaşlarına hər zaman köməklik göstərir, onların irəliləməsi üçün əlindən gələni əsirgəmir.

Ümumiyyətlə, Hərbi Məktəbin təcrübəli müəllim heyəti tərəfindən bu cür hərtərəfli biliyə malik zabitlərin hazırlanması onu deməyə əsas verir ki, Daxili Qoşunlar bundan sonra da üzərinə düşən hər bir tapşırığın öhdəsindən layiqincə gələcək.

leytenant N.Ağayeva

Şəhidlərimiz

VƏTƏN ÜÇÜN DOĞULMUŞUQ...

Vətən uğrunda canını qurban verərək şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımızın həyat və döyüş yolu bugünki yeniyetmə və gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir. Belə cəsur oğullarımızdan biri də Daxili Qoşunların şəhid döyüşçüsü kiçik çavuş Mirəli Mirəliyevdir.



MİRƏLİYEV MİRƏLİ VAQİF OĞLU

Mirəli Vaqif oğlu Mirəliyev 1973-cü il iyulun 30-da Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində dünyaya göz açıb. 1988-ci ildə qəsəbədəki Cəfər Cabbarlı adına 187 saylı orta məktəbin 8-ci sinfini bitirib. Sonra 6 saylı texniki-peşə məktəbində təhsilini davam etdirərək, xarratlıq peşəsinə yiyələnib.

Lakin digər həmyaşıdları kimi, Mirəlinin də yeniyetməlik və gənclik çağları respublikamızın ən ağır dövrünə - badnam qonşularımızın Qarabağda - Xocalıda və həmsərhəd rayonlarımızda dinc əhaliyə qarşı ardıarası kəsilməyən vəhşiliklər törətdikləri dövrə təsadüf edib.

Belə bir dövrdə, 1992-ci ilin mart ayının 6-da Mirəli Sabunçu RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

Bir müddət sonra o, Daxili Qoşunların Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. Əsgər M.Mirəliyev mükəmməl xidməti, yüksək intizamı və möhkəm iradəsi sayəsində tez bir zamanda komandirlərinin, eləcə də əsgər yoldaşlarının dərin rəğbətini qazanmağa müvəffəq olur. Komandirləri tərəfindən bu müsbət keyfiyyətləri nəzərə alınaraq Mirəliyə bir müddət sonra kiçik çavuş hərbi rütbəsi verilir.

Kiçik çavuş M.Mirəliyevin ilk dəfə vuruşan və o dövrdə əsgər kimi xidmət edən mayor Mahir Əsgərov (hazırda DQBİ-nin Şəxsi heyət üzrə İdarəsində mənəvi-psixoloji hazırlıq şöbəsinin hüquq xidmətində baş zabit-hərbi hüquqşünas - A.Ə.) cəsur döyüşçü ilə bağlı xatirələrini bizimlə bölüşərkən bunları dedi: **"Mirəlini çox yaxşı tanıyırdım. Onunla birgə Şuşanın Qaladərəsi kəndi, Qubadlının Novlu kəndi, eləcə də Füzuli və Ağdərə rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Ağır təbiətli, hər şeyin yerini bilən bir insan idi. Xoşxasiyyətli olması ilə yanaşı, yoldaşları ilə mehriban davranardı. Əsl döyüşçüyə xas olan mərdliyinə, qorxu bilməzliyinə və bir çox müsbət keyfiyyətlərinə görə bütün şəxsi heyət onun xətrini çox istəyirdi.**

Mirəli ilə son döyüşümüz isə Ağdərə rayonunda oldu. "Qlobus" deyilən yüksəkliyə hücum zamanı Mirəli qəhrəmancasına şəhid oldu, mən isə bu döyüşdə yaralandım".

Bu arada mayor M.Əsgərov sözünə bir qədər ara verib, 1993-cü ildə Mirəli və digər döyüşçü yoldaşları ilə birgə Füzuli rayonunun Şəkərcik kəndində xidmət edərkən xatirə olaraq çəkdirdikləri fotoşəkli mənə göstərir. Şəkildə mayor M.Əsgərov öndə oturmuş vəziyyətdə soldan 1-ci, Mirəli isə arxasında yarı oturmuş vəziyyətdə dayanaraq, sağ əlini onun köçəyinə qoyub. Öndə oturmuş vəziyyətdə sağdan 2-ci dayanan hərbi qulluqçu isə Ağstafa rayonunun Qırılı kəndindən olan və 1993-cü il martın 27-də Ağdam rayonunun Papravənd kəndində şəhid olmuş döyüşçü yoldaşı Əliyev Sirac Şöhrət oğludur. Öndə sağdan 6-cı, əlini əlinin üstünə qoyaraq oturmuş digər hərbi qulluqçu isə İmişli rayonundan olan, eləcə də Mirəli ilə eyni gündə və eyni döyüşdə şəhid olmuş cəsur döyüşçü yoldaşı İmanov Əbülfət Tərlan oğludur. Mayor M.Əsgərov şəhid olmuş silahdaşlarını heç zaman unutmadığını qeyd edərək, onların əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını bildirdi.

Füzuli rayonu, Şəkərcik kəndi. 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin 9 mart 2007-ci il tarixli Sərəncamı ilə kiçik çavuş Mirəliyev Mirəli Vaqif oğlu respublikamızın ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiyinə, döyüş zamanı igidlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə **"Hərbi xidmətlərə görə" medalı ilə** (ölümündən sonra) təltif edilmişdir.

Şəhid silahdaşımızın adının əbədiləşdirilməsi məqsədi ilə Maştağa qəsəbəsində bir vaxtlar yaşadığı küçəyə igid döyüşçünün adı verilib və bareleyfi vurulub.

Şəhid M.Mirəliyevin həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalılarımız - Məhərrəm Abbasovun 1999-cu ildə Bakıda nəşr olunan "Vətən borcu", Rəşid Faxralının 2002-ci ildə Bakıda nəşr olunan "Səngərdən əbədiyyətə", Sona Xəyalın (Hadıyeva) 2002-ci ildə Bakıda nəşr olunan "Körpə dünyasından qopan fəryad" və 2005-ci ildə Bakıda nəşr olunan "Maştağadan Qarabağa bir yol vardı - gedər-gəlməz" adlı kitablarında rast gəlmək olar. Bundan əlavə, Mərdan Hüseynlinin "Əsgər" qəzetinin 27.02.2004-cü il tarixli sayında dərc olunan **"Vətən üçün yaşanan ömür"**, Hacıbaba Babayevin "Xalq" qəzetinin 15.05.1993-cü il tarixli sayında dərc olunan **"Qisas qiyamətə qalmaz"**, İnqilab Mikayılının "İslam dünyası" qəzetinin 02.04.1993-cü il tarixli sayında dərc olunan **"Vətən şəhidləri ilə tanınır"**, Sona Xəyalın "Paklıq" qəzetinin 02.04.1993-cü il tarixli və 24.04.1993-cü il tarixli saylarında dərc olunan **"Şəhidliyi ilə torpağa məlhəm olan oğullar"** və **"Vətən sənə oğul dedi..."** başlıqlı məqalələrində, həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında Mirəlinin həyat və döyüş yolu barədə məlumatlar yer alıb.

Bundan əlavə, şairə Ütüviyə Baharın (İsmayılzadə) 2006-cı ildə Bakıda nəşr olunan "Sükutumun səsi" adlı şeirlər kitabında yer alan və 1993-cü il aprelin 14-də qələma aldığı **"Səməndər quşuna dönən igid"** adlı şeir məhz şəhid döyüşçünün xatirəsinə həsr olunub:

Sən ey Vətən oğlu, şəhid əminin,
Seçdiyi o yolla atdın addımı.
Yüksəldin ən ali zirvəyə, qardaş,
Qazandın əbədi şəhid adını.

Ömrün təravətli bahar çağında,
Qönçə arzuların çiçəklənmədi.
Səməndər quşuna dönən şəhidin,
Məzarı heç nədən kölgələnmədi.

Torpağın qoynunda məzarlar nə çox..
Şəhidə banzəmə orda yatanlar.
Vətənin layiqli övladlarıdır,
O müqəddəs yola qədəm qoyanlar.

Mirəli kimi vətənpərvər və cəsur hərbi qulluqçular Daxili Qoşunların tərkibində bu gün də şərəflə xidmət edirlər. Onlar işğal altında olan müqəddəs torpaqlarımızı düşməndən azad etməyə hər zaman hazırdır.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

KURSANTLARIMIZIN BİLİK VƏ BACARIĞI YÜKSƏK SƏVİYYƏDƏDİR

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və inkişaf edən Silahlı Qüvvələrimiz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bu gün də öz şərəfli missiyasını uğurla davam etdirir.

Günü-gündən ordumuzun gücünün artırılması, xüsusilə gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi dövlətin apardığı siyasətin əsas istiqamətlərindəndir.

Hər bir dövlətin müstəqil yaşaması üçün, hər şeydən əvvəl, onun güclü ordusunun olması vacib şərtlərdəndir. Güclü ordunun formalaşması, gücləndirilməsi isə yüksəkixtisaslı hərbçi kadrların hazırlanmasından başlanır.

Bu gün də Silahlı Qüvvələrin inkişafı üçün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hərbi təhsil sahəsində görülən işlər şəxsi heyətin yüksək döyüş hazırlığının təmin edilməsinə, Vətənə, xalqa, dövlət və dövlətçiliyə sədaqət runda hərbi təbiyə olunması - na, tapşırıqların məsuliyyətlə yerinə yetirilməsinə yönəlmişdir.

Respublikamızda hərbçi kadrların hazırlanması xüsusi təyinatlı təhsil müəssisələrindən biri də Daxili Qoşunların Ali Hərbi Məktəbidir. Peşəkar zabit kadrlarının hazırlanmasında digər təhsil müəssisələri kimi AHM də müəssisə əhəmiyyət kəsb edir. AHM-in fəaliyyətə başlaması Daxili Qoşunların inkişafına təkan verən amildir. Peşəkarlıq, təkmilləşmə, müasir dünyagörüşü, səriştə mükəmməl tədrisə bağlı olan məqamlardır. Əsas vəzifəsi savadlı və vətənpərvər əqidəyə malik zabit kadrları yetişdirməkdən ibarət olan AHM-də zabit və gizirlərin xüsusilərinin artırılması, elmi-tahqiqat işlərinin aparılması da nəzərdə tutulmuşdur.

Müasir hərb elminə və müvafiq hərbi təcrübəli mütəxəssislərə tələblərinə əsasən həyata keçirilən tədris fəaliyyəti yüksək səviyyəli biliyə, dünyagörüşünə malik zabitlərin formalaşmasına zəmin yaradır. Bunun üçün Ali Hərbi Məktəbdə hər cür şərait yaradılıb. Təlim-tədrisin keyfiyyətli şəkildə təşkili, kursantların bilik səviyyəsinin artırılması həm Daxili Qoşunlar Komandanlığı, həm də məktəb rəisi tərəfindən daima diqqət-də saxlanılır. Göstərilən qayğının nəticəsidir ki, 2016-cı tədris ili ərzində kursantlarımızın imtahan nəticələri yüksək olub. Belə ki, hazırlığına və təlim-tərbiyəsinə görə fərqlənən kursantlarımız haqqında müvafiq olaraq qəzetimizin ötən saylarında məlumat vermişdik.

Kursant **Emil Abdullayev** bu dəfə də verdiyi sözə əməl edərək, ötən tədris ilində birinciliyi qoru